**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR ŞƏRAİTDƏ VƏTƏNDAŞ CƏMİYYƏTİNİN FORMALAŞMASINDA SİYASİ İNSTİTUTLARIN YERİ VƏ ROLU

İxtisas: 5904.01 - "Siyasi institutlar və sistemlər"
Elm sahəsi: siyasi elmlər

İddiaçı: **Nuran Natiq qızı Məmmədli**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI-2024**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Politologiya və sosiologiya" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: fəlsəfə üzrə fəlsəfə doktoru, professor
**Əli Cavad oğlu Əhmədov**

Rəsmi opponentlər: siyasi elmlər doktoru, professor
**Elçin İldırım oğlu Əhmədov**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Adil İsrayıl oğlu Vəliyev**

siyasi elmlər üzrə fəlsəfə doktoru
**Tural Rauf oğlu Əliyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri:
______________________ Akademik
**Ürxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi:
______________________ siyasi elmlər doktoru, dosent
**Sevda Ağamirzə qızı Əliyeva**

Elmi seminarın sədri:
______________________ siyasi elmlər doktoru, dosent
**Sevil İmamverdi qızı Məmmədova**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Cəmiyyətimizin hazırki inkişaf mərhələsində ictimai həyatın bütün sferalarında baş verən köklü dəyişikliklər onların elmi dərk edilməsini və siyasi praktikada nəzərə alınmasını tələb edir. Yeni demokratik siyasi sistemin formalaşmasında milli prioritetlərin reallaşdırılması siyasi institutların, xüsusilə, vətəndaş cəmiyyətinin maraq və tələbatının rasional və optimal həyata keçirilməsi sosial siyasətin əsas yönümlərindən birinə çevrilir.

Demokratik rejimin ən əhəmiyyətli təminatı, şərti və eləcə də nəticəsi vətəndaş cəmiyyətinin və hüquqi dövlətin qurulmasıdır. Bununla bağlı Ümummilli lider Heydər Əliyev demişdir: «Respublikamızda hüquqi dövlət qurulması, demokratik sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlıqlarının təmin olunması… bizim əvvəlcədən qəbul etdiyimiz prinsiplərdir».[1] Hüquqi dövlət anlayışı və vətəndaş cəmiyyəti bir çox birləşdirici və hər ikisinin ümumi prinsiplərinə malikdir ki, bu göstəricilər, əsasən, hamı üçün çox önəmli əsasları özündə birləşdirir.

Bütün bunlar həm qlobal, həm də milli və regional ölçülərdə vətəndaş cəmiyyətinin öyrənilməsini tələb edir, eləcə də dövlətin bu institutlarla bağlı siyasətinin, onun formalaşmasının və həyata keçirilməsi mexaizmlərinin kompleks olaraq cəm şəkildə araşdırılmasını aktuallaşdırır. Elə bu kontekstdə dissertasiya mövzusunun aktuallığını və tədqiqinin zəruriliyini aşağıdakı müddəalarla ifadə etmək olar:

- hər şeydən qabaq qloballaşan hazırkı dünyada baş verən müxtəlif xüsuslu hadisələrin dünya siyasətinin əsas gündəliyinə çıxarılmasında, bu hadisələrin təkmilləşməsində və onlar ətrafında ictimai fikrin yaradılmasında vətəndaş cəmiyyətinin təsir gücünün müəyyənləşdirilməsi gün keçdikcə aktuallıq kəsb edir.;

-demokratik cəmiyyətdə başlıca siyasi institut olmaq etibarilə dövlətlə vətəndaş cəmiyyətinin qarşılıqlı münasibətinin tənzimlənməsi məsələsinin sistemli, kompleks öyrənilməsi mühüm

[1] Əliyev H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. c.8."Azərnəşr". Bakı, 1998. səh.388.

əhəmiyyət kəsb edir;

-vətəndaş cəmiyyətinin konseptual səviyyədə müəyyənləşdirilməsi, onun hüquqi bazasının yaradılması həyati zərurətdir;

-fərqli coğrafiyalarda vətəndaş cəmiyyəti institutlarının fərqli modelləri, qanunvericilik prosesi, onların bu prosesin subyektinə çevrilməsini şərtləndirən səbəb və amillər vətəndaş cəmiyyətini təşkil edən qrupların maraqlarının təşəkkülü mənbəyini üzə çıxarır;

-siyasi institutların vətəndaş cəmiyyəti ilə əlaqəsi və qarşılıqlı münasibəti mövcud problemin elmi əsaslarla öyrənilməsinə ciddi tələbat yaradır;

-Azərbaycanda yeni, dinamik iqtisadi və demokratik siyasi sistemin formalaşması, qloballaşma dövrünün tələblərinə cavab verən iqtisadi və siyasi xəttin işlənib hazırlanması və həyata keçirilməsi və sivil cəmiyyət quruculuğu istiqamətində uğurlu cəhdlər respublikamızın sabit, davamlı inkişafına, mənəvi dəyərlərin zənginləşməsinə, vətəndaş həmrəyliyinə əlverişli şərait yaratmışdır;

-Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması və inkişafı prosesi əlverişli şəraitdə təzahür edir. Cəmiyyətimizdə ictimai həyatın bütün sferaları transformasiyaya məruz qalır, bu qanunauyğun prosesdə köhnə sosial və siyasi təsisatlar yeniləri ilə əvəzlənir. Belə dəyişiklikdən kənarda vətəndaş cəmiyyətinin formalaşması, yeni pozitiv sosial-siyasi dəyişikliklər prosesinin uğurla, səmərəli başa çatması qeyri-mümkündür;

-Azərbaycanda III sektorun fəaliyyətinin milli qanunvericilikdə öz əksini tapması və yeni qanunvericilik bazasının inkişafı məsələlərini kompleks şəkildə tədqiq etmək;

-Prezident İlham Əliyevin beynəlxalq münasibətlərdə ölkənin nüfuzunun artırılması, imicinin formalaşdırılması, ölkənin hüquqi müstəvidə defakto tanınması qismində QHT-lərlə bağlı xüsusi strategiyasının araşdırılması elmi-praktiki əhəmiyyət daşıyır;

-İkinci Qarabağ müharibəsi dövründə ölkədə fəaliyyət göstərən müxtəlif siyasi partiyalarını milli birlik nümayiş etdirdilər və bu şəraitdə xalq-iqtidar birliyi aparılan tədqiqatın aktuallığını daha da artırır;

Ümumiyyətlə, yuxarıda qeyd olunan müddəalardan da aydın

olur ki, hal-hazırkı şəraitdə siyasi elmdə vətəndaş cəmiyyətinin formalaşmasında siyasi institutların yerinin, rolunun, onun həyata keçirilməsi üsullarının Azərbaycan Respublikası örnəyində başqa dövlətlərin, beynəlxalq təcrübənin müsbət hesab edilən nümunələrini də müqayisəli olaraq nəzərdən keçirilməklə araşdırılması həm nəzəri, həm də siyasi təcrübə baxımından xüsusi aktuallıq kəsb edir və bu mənada təqdim olunan dissertasiya qeyd olunan sahədəki mövcud boşluğun doldurulması istiqamətində müəyyən addım olraq qiymətləndirilə bilər.

İlk növbədə tədqiq edilən mövzu ilə əlaqəli ədəbiyyatı təhlil edərkən Azərbaycan Respublikasının Ümummilli lider Heydər Əliyevin çıxışları, nitqləri, bəyanatları və müsahibələrindən ibarət olan çoxcildli "Müstəqilliyimiz əbədidir"[2] kitablar toplusunu xüsusi olaraq qeyd etmək istəyirik. Burada baxılan problemlə bağlı təklif edilən konseptual xarakterli vacib çıxışlar çox önəm daşımaqla, dissertasiyanın nəzəri bazasını da təşkil etmişdir.

Müasir dövrdə Azərbaycanda demokratik rejimin, vətəndaş cəmiyyəti institutlarının inkişaf etdirilməsinin həyata keçirilməsi məsələləri ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışları, toplu halında nəşr edilmiş materiallar, xüsusilə də "İnkişaf - məqsədimizdir"[3] böyük önəm kəsb etmiş və dərindən öyrənilmişdir.

Azərbaycanda vətəndaş cəmiyyətinin təkmilləşməsi özünəməxsus fərqləndirici xüsusiyyətlər daşıyır. Bu təkmilləşmə prosesində nə qədər Qərbin beynəlxalq modeli əsas götürülsə də, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğunda respublikamızın milli spesifikası da özünü göstərir.

Son illər mövcud problemin araşdırılması ilə bağlı Ş.Bağırovun məqsədyönlü elmi fəaliyyəti xüsusi önəm kəsb edir. Ş.Bağırov vətəndaş cəmiyyətini kompleks səviyyədə araşdıraraq, onun nəzəriyyəsinin əsasən Qərb mənşəli konsepsiya olduğunu vurğulamaqla yanaşı, onun özünəməxsus Azərbaycan modelinin

---

[2] Əliyev H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. c.8. – Bakı: Azərnəşr, -, 1998. – 388 s.

[3] Əliyev, İ. İnkişaf - məqsədimizdir: yüz iyirmi beşinci kitab: yanvar 2023-fevral 2023. – Bakı: Azərnəşr, - 2023. -392 s.

olduğunu, bu nəzəriyyənin praktiki siyasi gerçəkliyə çevirməsini hərtərəfli təhlil etmişdir. Onun mövzu ilə əlaqəli yazılarında vətəndaş cəmiyyətinin formalaşması istiqamətində prioritet hədəfləri müəyyən edən yeni münasibətlərin qurulacağı müstəqil siyasi, iqtisadi, hüquqi, mədəni, mənəvi məkanı təmin etməsi vurğulanır. Ş.Bağırovun "Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğunun siyasi aspektləri"[4] adlı kitabı vətəndaş cəmiyyətinin qurulmasının öyrənilməsi baxımından əhəmiyyət kəsb edərək, Avropa dövlətləri ilə münasibətdə tarixi reallıqları nəzərə almaq baxımından diqqəti cəlb edir.

Vətəndaş cəmiyyətinin formalaşması və inkişafı məsələsi respublikamızda tədqiqat işlərində müəyyən aspektlərdə araşdırılmışdır. N. Ələkbərova "Siyasi elmin müasir problemləri"[5] adlı kitabında siyasi institutlar və vətəndaş cəmiyyətinin bəzi tərəflərini vurğulamış, K. Seyidov "Demokratik siyasi rejim və vətəndaş cəmiyyəti"[6] adlı tədqiqat işində demokratik siyasi rejim və vətəndaş cəmiyyəti problemini araşdırmışlar.

E.Əhmədovun "Heydər Əliyev və Azərbaycanın milli maraqlara əsaslanan dövlət siyasəti"[7] adlı kitabında Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə bütün sahələrdə ölkəmizin milli maraqlarının və mənafelərinin qorunmasına yönəlmiş bir sıra mühüm məsələlər geniş araşdırılmışdır.

A.Quliyev "Qeyri-hökümət təşkilatlarının ictimai-siyasi sistemdə yeri: milli və beynəlxalq təcrübə"[8] adlı dissertasiya işində vətəndaş cəmiyyəti təşkilatlarının strukturu və inkişaf istiqamətlərini

---

[4] Bağırov Ş. "Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğunun siyasi aspektləri". -Bakı, - 2007 ,- 165 s.

[5] Ələkbərova N. Siyasi elmin müasir problemləri.- Bakı. -"Elm və təhsil".-2013.- 372 s.

[6] K. R. Seyidov Demokratik siyasi rejim və vətəndaş cəmiyyəti [Mətn] : siyasi e. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı : 5904.01 / Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası.-Bakı, -2016. -23 s.

[7] E.İ.Əhmədov Heydər Əliyev və Azərbaycanın milli maraqlara əsaslanan dövlət siyasəti.- Bakı,-"Zərdabi LTD" MMC,- 2023, -200 s.

[8] Quliyev A. "Qeyri-hökümət təşkilatlarının ictimai-siyasi sistemdə yeri: milli və beynəlxalq təcrübə".- Bakı,- 2013

dissertasiyada vətəndaş cəmiyyətinin vacib tərkib hissəsi olan QHT-lərin inkişaf dinamikası, müasir Azərbaycan siyasi elmində QHT institutlarının yeri və rolu araşdırılıb, mövzu beynəlxalq təcrübə müstəvisində geniş təhlil edilib.

İ.Məmmədzadə "Vətəndaş cəmiyyəti və milli ideologiya: Azərbaycanda siyasi prosesin fəlsəfəsi"[9] adlı əsərində vətəndaş cəmiyyəti haqqında konsepsiyalara müqayisəli münasibət bildirmiş, vətəndaş cəmiyyəti, siyasi rejimlər və keçid dövrü transformasiya yolları haqqında, xüsusilə, postsovet məkanında baş vermiş dəyişiklikləri müqayisəli təhlil etməyi tədqiqat işi baxımından xüsusi maraq doğurur.

H.Babaoğlu isə bu problemin siyasi və hüquqi aspektlərini "Heydər Əliyev siyasi irsinin politoloji aspektləri"[10] adlı kitabında açıqlamışdır. Burada vətəndaş cəmiyyəti ,əsasən, insana öz vətəndaş hüquqlarını həyata keçirmək üçün şərait formalaşdıran, cəmiyyət üzvlərinin bir sıra fərqli istəklərini, maraqlarını və öz dəyərlərini anlatmaq üçün dövlətdən asılı olmayan, ictimai əlaqələr və institutlar sistemi kimi nəzərdən keçirilir.

Mövzu ilə əlaqədar tədqiq etdiyimiz problemin əhəmiyyətli aspektlərindən birini A.Mirzəzadənin "Azərbaycan Respublikasında çoxpartiyalı sistemin formalaşması xüsusiyyətləri" adlı dissertasiya işi təşkil edir. Dissertasiya işində vətəndaşların siyasi partiyalar və ictimai təşkilatlar vasitəsilə dövlətin idarə olunmasında fəal və birbaşa iştirak edə biləcəyinə, eyni zamanda bu prosesin Azərbaycan cəmiyyəti üçün də xüsusi aktuallığı diqqətə çatdırılımışdır[11]. M.Həsənovun "Azərbaycan Resplikasında demokratiyanın qərarlaşması və inkişafında çoxpartiyalılığin rolu" adlı dissertasiya işi də diqqəti cəlb edir. Müəllif dissertasiya işində ölkədə demokratiyanın inkişafı, vətəndaş cəmiyyətinin bərqərar olması, əsas insan hüquq və və azadlıqlarının qorunması, siyasi plüralizmin, söz və ifadə, azadlıqlarının təmin olunmasnın dövlətin başlıca

---

[9] Məmmədzadə İ. "Vətəndaş cəmiyyəti və milli ideologiya: Azərbaycanda siyasi prosesin fəlsəfəsi. Bakı, 1995

[10] Məmmədov H. "Heydər Əliyev siyasi irsinin politoloji aspektləri". Bakı,2013, 456 s.

[11] Mirzəzadə A. "Azərbaycan Respublikasında çoxpartiyalı sistemin formalaşması xüsusiyyətləri". Bakı, "Azərbaycan", 2001

prioritetlərini təşkil edilməsi haqqında araşdırma aparmışdır.

Tədqiqat işi ilə qismən bağlılıq kəsb edən və yaxud onunla bilavasitə əlaqədar olmayan, eləcə də mövcud problemin bu və ya digər tərəflərinə aid olan məqamlar xarici politoloji ədəbiyyatda öz ifadəsini tapmışdır. Bu mövzuya müəyyən dərəcədə K. Popper "Açıq cəmiyyət və onun düşmənləri", R.Dahl "Demokratiya haqqında", A.de Tokvil "Amerikada demokratiya", R.Aron "Demokratiya və totalitarizm" və S.Hantinqtonun "Üçüncü dalğa. XX əsrin sonunda demokratikləşmə" və s. öz əsərlərində xüsusi yer vermişlər[12]. A.de Tokvil Amerika demokratiyasının formalaşmasını, vətəndaş cəmiyyətinin dəyərlərini və spesifik xüsusiyyətlərini araşdırmışdır.[13] Vətəndaş cəmiyyətinin öz prinsiplərinin olduğunu bildirən Şotland maarifçisi A.Ferqyuson 1767-ci ildə yazdığı "Vətəndaş cəmiyyəti haqqında esse"[14] adlı əsərində vətəndaş cəmiyyəti anlayışını texniki və ya dar mənada təbiətin vəziyyətindən fərqli olaraq, nizamlı idarəçiliyi və siyasi öhdəliyi olan cəmiyyət, bir sözlə dövlət, geniş mənada ibtidai və ya vəhşi cəmiyyətdən və bütün növ despotizmdən fərqli olaraq sivilizasiyadan, yəni sivil cəmiyyətdən istifadə edirdi. A.Seliqman[15] isə vətəndaş cəmiyyəti ideyasına və onun bəzi aspektlərinn tədqiqinə diqqət yetirmişlər.

Tədqiq edilən problemin bəzi aspektləri Rusiya alimlərinin də diqqətindən yayınmamışdır. Əsasən, Y.İ.Averyanovun rəhbərliyi ilə çap etdirilən politologiyaya aid ensiklopedik lüğətdə vətəndaş cəmiyyəti anlayışı bu formada şərh olunmuşdur: "Vətəndaş tcəmiyyəti dövlətdən asılı olmayan, amma dövlətlə əlaqəsə olan,

---

[12] Popper K. The Open Society and Its Enemies.-London and New York. -2012 -735 p.Robert A. Dahl. On Democracy. Yale University Press. 1998. 288p.Токвилль А. «Демократия в Америке». М., 1992. Арон Р.Демократия и тоталитаризм. М., Мысль, 1993, 303 с.; С.Хантингтон Третья волна. Демократия в конце XX века, 2003

[13] Парсонс Т. Система современных обществ. М.: Аспект Пресс. 1998, 270 с. Seliqman A. Vətəndaş cəmiyyəti ideyası. Bakı, "Nurban", № Pb, 205, 240 s. Санестебан Л. Государство и общество. Диалог. М.: 1993, №5-6. Михаев Р. Т. Теория политики М.: Юнити, 2005, 623 с.

[14] A.Ferguson: An Essay on the History of Civil Society (Cambridge Texts in the History of Political Thought. Cambridge University Press.1996. 322 p.

[15] Seliqman, A.B., Vətəndaş cəmiyyəti ideyası. – Bakı: "Nurlar" NPB. – 2005. – 240 s.

təşkilat üzvləri arasında olduqca inkişaf etmiş iqtisadi, mədəni, hüquqi və siyasi əlaqələrdir. O, dövlətlə bir yerdə inkişaf etmiş daimi hüquqi əlaqələr formalaşdıran, yüksək sosial, iqtisadi, siyasi, mədəni və əxlaqi statusa sahib olan cəmiyyətdir. Vətəndaş cəmiyyəti elə bir prosesdir ki, cəmiyyət, hakimiyyət, siyasət və insanın mütəmadi şəkildə inkişaf prosesi baş verir."[16]

Y.M.Reznik[17] cəmiyyətinin sosioloji təhlilinə vətəndaş cəmiyyətinin fəlsəfi inkişaf aspektində şərhinə cəhd edib. V.A.Vityuk vətəndaş cəmiyyətinin formalaşmasını, V.Xoros isə vətəndaş cəmiyyətinə ümumi yanaşmaları nəzərdən keçirmişdir. Rusiya alimləri L.Y.Qrudina, V.A.Malçev, B.Z.Kapustin və başqa tədqiqatçıların[18] xidmətləri də maraq doğurur.

Mövzu ilə ələqəli Türkiyə alimlərinin də bir çox araşdırmalarına rast gəlmək mümkündür. Belə ki, İ.Doğan "Liberal və totalitar düşüncə ənənəsində vətəndaş cəmiyyəti"[19] adlı kitabında vətəndaş cəmiyyətini azad və bərabərhüquqlu vətəndaşların bazar və demokratik hüquqi dövlətçilik şəraitində dövlətinköməkliyi ilə həll edilməyən qarşılıqlı əlaqələrin çoxcəhətliliyi kimi tədqiq etmişdir.

"Vətəndaş cəmiyyəti və dövlət"[20] adlı əsərində vətəndaş cəmiyyəti ilə siyasətin əlaqəsini problematikləşdirən G.Tuncel vətəndaş cəmiyyəti arasındakı əlaqəni araşdırmışdır Cəmiyyət, dövlət və tarixi proseslərlə yanaşı, bu təşkilatların bugünkü yeni sosial transformasiyalara təsirini tədqiq etmişdir.

---

[16] Averyanov, Y.İ. Политология: Энциклопедический словарь. - Изд-во Моск. коммерч. ун-та. – 1993. – 431 с.

[17] Резник Ю.М. Гражданское общество как обьект социологического анализа. Автореф. Дисс. Канд. Философ. Наук. М.: 1990, 21 с

[18] Витюк В.В. Становление идеи гражданского общества и ее историческая. М.: Юнити, 1995, 91 с. Хорос В. Гражданское общество: как она формируется (и сформируется ли) в постсоветской России. М.,МэиМо,1997.№5.Грудцына, Л. Ю. Государство и гражданское общество: моногр. / Л.Ю. Грудцына. - Москва: Юркомпани. – 2010. - 464 с.В.А Мальцев, Основы политологии. Moskova: 1997Капустин, Борис Гражданство и гражданское общество / Борис Капустин. - Москва: Высшая Школа Экономики (Государственный Университет). – 2011. - 224 с.

[19] Doğan İ. Sivil Toplum Özgürlükçü ve Totaliter Düşünce Geleneğinde. Alfa yayınları. 2003. 307 s.

[20] Tuncel G. Sivil toplum ve devlet. Bilsam yayınları 2011. 352 s.

A.R.Abay "Vətəndaş cəmiyyəti və demokratiya kontekstində vətəndaş həmrəyliyi və qeyri-hökumət təşkilatları"[21] adlanan kitabında təmsilçi demokratiyaların təmsilçilik böhranına girdiyi iddiaları tez-tez vurğulanmış, vətəndaş cəmiyyəti və vətəndaş təşkilatları anlayışı bu böhrandan çıxmaq prosesində əsas vasitəçi kimi təqdim edilmişdir, A.G. Akpınar "Vətəndaş cəmiyyətinin konseptual əsasları və Türkiyə perspektivi"[22] kitabında keçmişdən bu günə vətəndaş cəmiyyəti konsepsiyasının fəlsəfi əsaslarını araşdırmış, hər bir mütəfəkkirin vətəndaş cəmiyyəti ilə bağlı fikirlərini bütövlükdə tədqiq etdiyi üçün müəyyən mütəfəkkirin bu mövzuda fikirləri ilə maraqlanan oxucular üçün də mühüm mənbə təklif etmişdir.

Ö.Çahanın müəllifi olduğu "Vətəndaş cəmiyyəti və dövlət"[23] kitabında vətəndaş cəmiyyətinin təşəkkülü və xüsusiyyətlərini, vətəndaş cəmiyyətinə dair klassik və müasir konsepsiyaları araşdırılmışdır, N.Aksoyun "Vətəndaş cəmiyyəti və təzyiq qrupları"[24] adlanan kitabında isə vətəndaş cəmiyyəti münaqişələrinin həllinin sosial texnologiyası tədqiq edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini siyasi institutların vətəndaş cəmiyyətinin formalaşmasına dair fəaliyyəti, predmetini bu prosesə siyasi institutların, xüsusilə dövlət və siyasi partiyaların təsiri yolları və vasitələri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi vətəndaş cəmiyyətinin formalaşması və inkişafı probleminə nəzəri aspektlərinin təhlilindən, dünya dövlətlərinin və Azərbaycan Respublikasının təcrübəsinin araşdırılması əsasında bu prosesdə siyasi institutların rolunun tədqiq edilməsindən ibarətdir. Qarşıya qoyduğumuz məqsədə çatmaq üçün araşdırmalarımızın gedişində yerinə yetirməli olduğumuz vəzifələri aşağıdakı kimi müəyyən etmişik:

---

[21] Abay,A. R. Sivil Toplum ve Demokrasi Bağlamında Sivil Dayanışma ve Sivil Toplum Örgütleri:2011.http://baskanlikreferandumu.siyasaliletisim.org/wpcontent/uploads/2011/01/siviltoplumvesivildayanisma.pdf

[22]Akpınar,A.G. – Düşünsel Temelleri ve Türkiye Perspektifi, 2001

[23] Çaha Ö. Sivil toplum ve devlet. Orion kitabevi ders kitaplari. 2016. 350 s.

[24] Aksoy N. Sivil toplum ve baskı grupları" Kaknüs yayınları. 2008. 270 s.

-Vətəndaş cəmiyyətinin formalaşmasına aid nəzəri-konseptual yanaşmaları nəzərdən keçirmək;

-Vətəndaş cəmiyyətinin strukturunu müəyyənləşdirmək;

-Vətəndaş cəmiyyətinin formalaşması mexanizmini təhlil etmək;

-Dövlətlə vətəndaş cəmiyyətinin qarşılıqlı münasibətini araşdırmaq;

-Siyasi partiyaların vətəndaş cəmiyyətinin inkişafına təsir mexanizmləri aydınlaşdırmaq;

-Müstəqil Azərbaycan Respublikasında Ümumilli lider Heydər Əliyevin vətəndaş cəmiyyətinin formalaşmasında rolunu təhlil etmək;

-Vətəndaş cəmiyyətinin inkişafında İlham Əliyevin strateji kursunun əsas istiqamətlərini açıb göstərmək;

-44 günlük Vətən müharibəsi zamanı və postmüharibə dövründə vətəndaş cəmiyyəti institutlarının fəaliyyət formalarını araşdırmaq;

**Tədqiqatın metodları.** Vətəndaş cəmiyyəti kimi spesifik və mürəkkəb problemin tədqiqində sistemli və sinergertik yanaşma metodları əhəmiyyət kəsb edir. Tədqiqatın aparılmasında analiz, sintez, induksiya, deduksiya kimi ümumiməntiqi metodlardan, sistemli, struktur-funksional, müqayisəli-tarixi təhlil metodlarından və həmçinin, xüsusi politloji metodlar sayılan siyasi təhlil, proqnozlaşdırma, kontent-analiz metodlarından istifadə olunmuşdur. Bu seçimdə məqsədimiz apardığımız təhlilin və çıxardığımız nəticələrin elmiliyinə nail olmaqdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar** aşağıdakılardan ibarətdir:

-Vətəndaş cəmiyyətinin formalaşması çoxtərəfli prosesdir və bu prosesə siyasi institutların rolu xüsusi əhəmiyyət kəsb edir.

-Dövlət vətəndaş cəmiyyəti quruculuğunun başlıca elementi rolunda çıxış edən qeyri-hökumət təşkilatları vasitəsi ilə cəmiyyətin tələblərinə daha dəqiq cavab verəcək addımlar atır.

-Vətəndaş cəmiyyətinin və onun institutlarının formalaşması və inkişafında dövlətin rolu mühümdür. Vətəndaş cəmiyyəti institutlarının normal fəaliyyətini təmin etməyə yardım etmək,

dövlətlə QHT-nin əməkdaşlığını genişləndirmək, ictimai nəzarətdə QHT-lərin rolunu artırmaq inkişaf etmiş ölkələrin əsas prioritet istiqamətlərindəndir.

-Siyasi partiyalar vətəndaş cəmiyyətinin formalaşması və inkişafına təsir göstərir və dövlətlə vətəndaş cəmiyyəti arasında münasibətlərin qurulmasında vasitəsçilik rolu oynayır.

-Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafının əhəmiyyətli qüvvəsinə çevrilmiş qeyri-hökümət təşkilatlarının unikallığını səciyyələndirən məqamların üzə çıxarılmasına imkan verməklə yanaşı, həm də ölkənin xarici-mədəni əlaqələrinin genişləndirilməsindəki rolu müəyyənləşdirilməkdədir.

-Heydər Əliyev Fondu vətəndaş cəmiyyətinin inkişafına öz töhfəsini verir.

-Vətəndaş cəmiyyəti institutları Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində həyata keçirilən hərtərəfli strategiyanın vacib elementinə çevrilmişdir, beynəlxalq müstəvidə ölkəmizin ədalətli mövqelərinin möhkəmlənməsinə xidmət etməkdədir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi hər şeydən əvvəl, bu sahədə araşdırmanın probleminin qoyuluşu ilə müəyyən olunur. Eyni zamanda müxtəlif dövlətlərdə vətəndaş cəmiyyəti formalaşmasında siyasi institutların rolu müqayisəli şəkildə tədqiq edilmişdir. Apardığımız təhlil prosesində gəldiyimiz başlıca elmi yeniliklər bunlardan ibarətdir:

-Vətəndaş cəmiyyəti ilə bağlı mövcud olan nəzəri konseptual yanaşmalar təhlil edilərək sistemləşdirilmiş, ümumiləşdirilmiş müddəalar təqdim edilmişdir;

-Dövlətlə vətəndaş cəmiyyətinin münasibəti tədqiq edilmişdir;

-Vətəndaş cəmiyyətinin inkişafı və fəaliyyətinə siyasi institut kimi siyasi partiyaların təsir imkanları araşdırılmışdır;

-Dünya ölkələrinin təcrübəsi əsasında vətəndaş cəmiyyətinin modelləri araşdırılmış və fərqli cəhətləri təhlil edilmişdir;

-QHT-lər şəbəkəsi vətəndaş cəmiyyətinin təkmilləşməsi sistemində xüsusi və zəruri element kimi müəyyənləşdirilmişdir.

-Müstəqil Azərbaycanda demokratik siyasi sistemin formalaşması kontekstində Ümummilli lider Heydər Əliyev

tərəfindən əsası qoyulmuş vətəndaş cəmiyyətinin təşəkkül xüsusiyyətləri araşdırılmışdır;

-Prezident İlham Əliyevin Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına dair strateji kursunun reallaşması , eləcə də bu sahədə davam edən siyasətin istiqamətləri faktlarla tədqiq edilmişdir.

-Azərbaycan Respublikasında vətəndaş cəmiyyəti müasir mərhələsinin əsas xüsusiyyətləri açıqlanmış və bu prosesin istiqamətləri, meylləri müəyyənləşdirilmişdir;

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti:** Müasir şəraitdə vətəndaş cəmiyyətinin formalaşmasında siyasi institutların yeri və rolunun tədqiqinin nəticələrindən vətəndaş cəmiyyətinin maraqları və fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi, elmi baxımdan əsaslandırılması, konseptual hüquqi bazanın yaradılması və təkmilləşdirilməsində, həyata keçirilməsi vasitələrindən istifadə edilməsində, bir sıra elmi tədqiqatlarda, bakalavr və magistratura mərhələlərində müvafiq siyasi elmin fənlərinin tədrisinə dair mühazirə və seminarlarda istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi**. Mövzunun tədqiqi prosesində əldə etdiyimiz əsas qənaətlər respublika və xarici mətbuatda nəşr etdirilmiş elmi məqalələrdə əksini tapmaqla elmi ictimaiyyətə təqdim edilmişdir. Dissertasiya işi Bakı Dövlət Universitetinin "Politologiya və sosiologiya" kafedrasında keçirilmiş ilkin müzakirədə aprobasiyadan keçmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Bakı Dövlət Universiteti.

**Dissertasiyanın ümumi həcmi**. Dissertasiya işi giriş, üç fəsil, yeddi paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısı və dissertasiyanın əsas nəticələrini əks etdirən nəşr olunmuş elmi əsərlərin siyahısından ibarətdir. Giriş -17453, I Fəsil – 94147, II Fəsil -53386 , III Fəsil – 78232, Nəticə -14231, ümumi həcm – 257449 işarədən ibarətdir.

# DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri müəyyən edilmiş, onun elmi yeniliyi, nəzəri-metodoloji və mənbəşünaslıq bazası, müdafiəyə çıxarılan əsas müddəalar, həmçinin, nəzəri və praktiki əhəmiyyəti göstərilmiş, problemin öyrənilmə səviyyəsi nəzərdən keçirilmişdir.

Birinci fəsil **"Vətəndaş cəmiyyəti sosiumun demokratik inkişafının mühüm mərhələsi kimi"** adlanır. Bu fəslin **"Vətəndaş cəmiyyətinin mahiyyəti və onun formalaşması probleminə nəzəri-konseptual yanaşmalar"** adlı birinci yarımfəslində "vətəndaş cəmiyyəti" anlayışının XVII əsrdən etibarən elmi dövriyyəyə daxil olması və XVIII-XIX əsrlərdən başlayaraq öyrənilməsinə cəhd edildiyi göstərilib. Bütövlükdə bu anlayış dövlətdən asılı olmayan, lakin dövlətlə əlaqəsi olan, könüllü qaydada yaradılan, fərdlərin öz aralarında iqtisadi, mədəni, eləcə də siyasi və hüquqi münasibətlər kimi araşdırılmışdır. Vətəndaş cəmiyyəti özünüidarə və özünütənzimləmə mexanizminə malik olan, mülki şəxslərin könüllü birləşməsi nəticəsində yaranan qeyri-siyasi ictimai birlikdir.[25]

Siyasi fikir tarixində vətəndaş cəmiyyəti anlayışına müxtəlif yanaşmalar mövcud olsa da, bu istiqamətdə iki başlıca klassik nəzəriyyə daha çox diqqəti cəlb edir:[26] Şotlandiya maarifçiliyi çərçivəsində İngiltərə və Amerikada inkişaf etmiş liberal ənənə vətəndaş cəmiyyəti-siyasi cəmiyyət münasibətlərini müəyyən edən fundamental dinamikdir. Bu ölkələr öz tarixi və sosial yığımlarını müasir institutlarla sintez edərək, siyasi cəmiyyətin mərkəzi təyinatı deyil, aristokratların və yerli icmaların uzlaşması ilə formalaşan geniş əsaslı sosial dinamika ilə idarə olunur. Anqlo-sakson modeli fərdə üstünlük verir və vətəndaş cəmiyyətini dövlətin və ya siyasi gücün cəmiyyətə potensial təzyiqinə qarşı balanslaşdırıcı qüvvə kimi qəbul edir.

Fransız modeli dövlət-vətəndaş cəmiyyəti münasibətlərində

[25]Политология: Энциклопедический словарь. М.: «БИГ», 1993, с. 75
[26]Seliqman, A.B., Vətəndaş cəmiyyəti ideyası. – Bakı: "Nurlar" NPB. – 2005. – 240 s.

dövlətə üstünlük verən totalitar xətt izləyir və vətəndaş cəmiyyətinin suverenliyin ayrılmaz və şübhəsiz olduğu transsendental dövlətin nəzarəti altında olmasını müdafiə edir. Vətəndaş cəmiyyəti haqqında spesifik konsepsiyalardan digəri marksist görüşlərdir. Bu konsepsiya dövlətin vətəndaş cəmiyyəti ilə müqayisədə üstünlük kəsb etməsi haqqında Hegelin liberal görüşlərinə ziddir. 19-cu əsrdə ortaya çıxan marksist düşüncədə vətəndaş cəmiyyəti burjua cəmiyyəti hesab edildiyi üçün mənfi qarşılanırdı. Marksa görə, burjua dövlətinin vətəndaşları məhz mülkiyyətçi siniflər və sosial qruplardır.

Bəzi müəlliflərin fikrincə, demokratik cəmiyyətin daha inkişaf etmiş institutu olan vətəndaş cəmiyyətinin fəaliyyət göstərməyinin, onun ən qüdrətli özünü təşkil edən struktura çevrilməsinin başlıca səbəbi xüsusi mülkiyyətdir. İ.L.Kermonun və K.Komarın fikrincə, vətəndaş cəmiyyətinin təzahürü, dövlət sahəsinə təsir etməyi, vətəndaşların ehtiyaclarının dövlətin tənzimləmələrində özünü tapa bilməsi uzun və mürəkkəb tarixi prosesin məhsuludur.[27] Əlbəttə bu müəlliflərin fikri ilə razılaşmaq olar və bu kontekstdə belə əsaslandırmaq olur ki, xüsusi mülkiyyət demokratik siyasi sistemin daha inkişaf etmiş təsisatı olmaqla vətəndaş cəmiyyətinin təşəkkülü, formalaşması və onun mükəmməl özünü təşkil edən ictimai struktura çevrilməsinin əsas ümumi səbəblərindən biri kimi səciyyələnir. Vətəndaş cəmiyyətinin təşəkkülünü şərtləndirən ikinci ümumi səbəb azadbazar iqtisadiyyatıdır. Nəhayət, vətəndaş cəmiyyətinin formalaşması və fəaliyyətinin digər ümumi səbəbi məhz demokratik cəmiyyətin öz vətəndaşlarının maraq və tələbatını maksimal səviyyədə təmin etməyə cəhd etməsidir.

Bu fəslin ikinci yarımfəsli **"Vətəndaş cəmiyyətinin strukturu və formalaşması mexanizmi"** adlanır və burada vətəndaş cəmiyyətinin məzmunu və struktur elementləri tədqiq olunmuşdur, "vətəndaş cəmiyyəti" anlayışına aydınlıq gətirilmişdir. Vətəndaş cəmiyyətinin funksional təbiəti onun struktur elementləri ilə şərtlənir.[28] Vətəndaş cəmiyyətinin məzmununda onun strukturu başlıca yer tutur. Bu elə bir cəmiyyətdir ki, ictimai həyatın demək

---

[27] Комар К. Гражданское общество. М., 1994, с. 21.

[28] Андрианов, Н. В. Гражданское общество как среда институционализации адвокатуры / Н.В. Андрианов. - Москва: Либроком. – 2015. – 304 с.

olar ki, hər sahəsində ona aid olan qurumlar vasitəsilə təmsil olunur.

Vətəndaş cəmiyyətinin mahiyyəti və məzmunu barədə mövcud olan müxtəlif mülahizə və mühakimələri ümumiləşdirərək belə qənaətə gəlmək olar: əvvəla, vətəndaş cəmiyyəti məhz demokratik dövlətlərdə formalaşan və inkişaf edən insan birliyidir. O, qeyri-dövlət münasibətlərinin iqtisadi, sosial, mənəvi, dini və digərlərinin məcmuu kimi səciyyələnir, ikincisi, vətəndaş cəmiyyətini şərtləndirən təşkilatların məcmuunun özünəməxsusluğu ondan ibarətdir ki, bu təşkilatlar dövlət vasitəsilə deyil, vətəndaşların özü və müxtəlif müəssisələr tərəfindən yaradılır, dövlətə münasibətdə muxtar xarakterə malikdir, şübhəsiz, fəaliyyətdə olan mövcud qanunlar çərçivəsində; nəhayət, demokratik siyasi reallığın mühüm tərəfi olmaq etibarilə, vətəndaş cəmiyyəti bütövlükdə ictimai rəyin ifadəsi olmaqla, özünün spesifik formada üzə çıxan siyasi hakimiyyətinə xidmət edir. Vətəndaş cəmiyyətinin məzmununda onun strukturu başlıca yer tutur. Bu elə bir cəmiyyətdir ki, ictimai həyatın demək olar ki, hər sahəsində ona aid olan qurumlar vasitəsilə təmsil olunur.

Dissertasiyanın **"Müasir siyasi institutların vətəndaş cəmiyyətinin formalaşma prosesinə təsiri"** adlanan ikinci fəsli iki yarımfəsli əhatə edir**. "Vətəndaş cəmiyyətinin formalaşmasında dövlətin rolu"** adlanan birinci yarımfəsildə dövlət başlıca siyasi institut kimi açıqlanmış, onun vətəndaş cəmiyyəti ilə qarşılıqlı əlaqəsi və münasibəti vurğulanmış, onları bir-birindən fərqləndirən xüsusiyyətlər nəzərə çatdırılmışdır.

Dövlət və vətəndaş cəmiyyətinin qarşılıqlı münasibəti ən əhəmiyyətli məsələlərdən biridir. Şübhəsiz, bu qarşılıqlı münasibət məhz vətəndaş cəmiyyətinin meydana gəlməsi ilə təşəkkül tapır. Müasir siyasi elmdə vətəndaş cəmiyyəti dövlət əlaqələrinin və qeyri-hökumət strukturlarının mürəkkəb çoxcəhətli sistemi kimi araşdırılır. Vətəndaş cəmiyyəti elə bir universal və qüdrətli sosial praktikadır ki, dövlət onunla hesablaşmağa məcburdur. Dövlət və vətəndaş cəmiyyəti arasındakı əlaqəyə tərəfdaşlıq kimi baxmaq lazımdır, hər biri digərinə kömək edir, həm də digəri üzərində nəzarət funksiyasını yerinə yetirir. [29]

---

[29] Əfəndiyev M.Ə. Politologiya. B., "Elm" 2013. s. 345

Vətəndaş cəmiyyəti subyektlərinin iştirak etdikləri kommunikativ münasibətlərin baza tipi “hökmranlıq-tabeçilik” münasibəti deyil, məhz elə əməkdaşlıq münasibətidir ki, bu zaman qarşılıqlı fəaliyyətdə olan tərəflər bir-birinə öz maraqlarına və tələbatına malik olan bərabərhüquqlu müttəfiq kimi baxırlar. Vətəndaş cəmiyyətinin güclü olduğu cəmiyyətlərdə demokratiyanın daha möhkəm təməllər üzərində qurulduğu, vətəndaş cəmiyyətinin olmadığı və ya dövlət müdaxiləsinə açıq olduğu hallarda demokratik hərəkatların zamanla avtoritar quruluşa çevrildiyi də məlum faktdır. Buna görə də güclü vətəndaş cəmiyyəti demokratiyalar üçün zəruri olsa da, təkcə vətəndaş cəmiyyətinin olmağı demokratiya üçün kifayət olmaya bilər.[30]

Dissertasiya işində xarici ölkələrdə QHT-lərin təcrübəsi geniş təhlil edilmişdir. Bir çox dövlətin qanunvericiliyinin müddəalarının təhlili və ümumiləşdirilməsi əsasında belə qənaətə gəlinmişdir ki,demokratik plüralist sistemdə qeyri-hökumət təşkilatları cəmiyyətdə fərdlərin öz fikirlərini sərbəst ifadə edə bildiyi polifonik mühitin yaradılmasına yardım edir. Şübhəsiz ki, demokratik sistemlərdə fərdin hər cür azadlıqları kimi ifadə azadlığı da geniş müdafiə sahəsinə malikdir. Dissertasiyada bu prosesin zərurililiyi bir neçə obyektiv amillə əlaqələndirilmişdir. Belə ki, QHT-lərin böyük əksəriyyəti elə məsələləri həll edirlər ki, dövlət orqanları müxtəlif səbəblərdən həmin məsələlərə lazımi qədər diqqət ayırmırlar.

Müasir dövrün ictimai təsisatları olaraq, qeyri-hökumət təşkilatları hüquqi dövlət quruculuğu, ictimai-siyasi həyatın demokratikləşdirilməsi, insan hüquq və azadlıqlarının qorunması, cəmiyyətdə harmonik və sabit inkişafın təmin edilməsində əhəmiyyətli rol oynayırlar. Ümummilli lider Heydər Əliyev bildirmişdir ki, əgər hər hansı bir ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirlərsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olur.[31]

Vətəndaş cəmiyyətinin aparıcı qüvvəsi kimi, qeyri-hökumət təşkilatları üçüncü sektorun, ümumilikdə cəmiyyətin sosial-iqtsiadi

---

[30]Василенко И.А. Диалог цивилизации: социокультирные проблемы политического партерства. М.: Логос. 1999, с. 4-5.
[31] Əliyev H. Ə. Deyilən söz yadigardır. Azərbaycan Atatürk Mərkəzi, 2011, s. 10

inkişafının ən müxtəlif istiqamətlərinə, sülh və təhlükəsizliyin, dinc birgəyaşayışın təmin olunmasına, bəşəriyyəti narahat edən problemlərin həllinə böyük töhfə verirlər.

**"Vətəndaş cəmiyyətinin inkişafı və fəaliyyətinə siyasi partiyaların təsiri imkanları"** adlanan ikinci yarımfəsildə vətəndaş cəmiyyətinin təşəkkülü, formalaşması, inkişafı və fəaliyyətində siyasi partiyaların rolu araşdırılmışdır. Liberal-demokratik ictimai-siyasi sistemdə vətəndaş cəmiyyəti və hüquqi dövlət bir-biri ilə qırılmaz surətdə bağlıdır. Bununla yanaşı həm vətəndaş cəmiyyəti sahəsinə və həmçinin dövlət sferasına aid edilə bilən bir sıra institut və fenomenlər mövcuddur. Bu baxımdan siyasi partiya və təşkilatlar müxtəlif aspektlərlə həm dövlət, eləcə də vətəndaş cəmiyyəti sahələrinə məxsusdur və bir növ onlar arasında birləşdirici, əlaqələndirici vasitə kimi çıxış edir.

Siyasi partiyalar demokratik cəmiyyətin ayrılmaz tərkib hissəsidir. İngilis alimi Douzun qeyd etdiyi kimi ictimai təşkilatlar arasında ən siyasiliyə malik olanı məhz partiyalardır. Siyasi partiyalar ölkədə siyasi iradənin formalaşmasına və inkişafına istiqamət verən əsas elementlərdir.

Siyasi partiyalar qarşıya qoyduqları məqsədləri, fəaliyyət metodları, hakimiyyətə təsir imkanları və digər səciyyəvi xüsusiyyətləri ilə seçilir və eləcə də vətəndaş cəmiyyətinin inkişafı və fəaliyyətinə ciddi təsir imkanları ilə fərqlənirlər. Bəzi yeni sosial hərəkatların bir hissəsi əsasən partiyaların sosial maraqları ifadə və təmsil etmək kimi funksiyalarını qəbul etmişlər.[32] Belə bir qənaətə gəlmək olar ki, vətəndaş cəmiyyətində qərarlaşan siyasi partiyalar müəyyən mənada vətəndaş cəmiyyətindən çox, siyasi sistemin zəruri aparıcı komponentidir.

Dissertasiya işinin **Azərbaycan Respublikasında vətəndaş cəmiyyətinin formalaşması və inkişafında dövlət və siyasi partiyaların rolu"** adlanan üçüncü fəsli üç yarımfəsildən ibarətdir**.** Bu fəslin **"Azərbaycan Respublikasında vətəndaş cəmiyyətinin formalaşmasında Ümummilli lider Heydər Əliyevin rolu"** adlanan birinci yarımfəslində demokratik cəmiyyət quruculuğu

---

[32] Пугачев В.П., Соловьев А.И. Введение в политологию. М.: Аспект Пресс. 2010, с. 113.

prosesində Azərbaycanda müxtəlif vətəndaş cəmiyyəti təşkilatlarının yaranması, inkişafı və formalaşması xüsusiyyətləri araşdırılmışdır.

1991-ci ildə Azərbaycan Respublikası 18 oktyabr 1991-ci ildə müstəqilliyi barədə "Azərbaycan Respublikasının müstəqilliyi haqqında" Konstitusiya aktını qəbul etdikdən sonra respublikada fəaliyyət göstərən vahid partiyalı, tək ideologiyanın hökmranlıq etdiyi, cəmiyyətin hər sahəsinə ciddi şəkildə nəzarət edən totalitarizmin respublikamızdakı hökmranlığına son qoyulması ilə tezliklə vətəndaş cəmiyyəti və hüquqi dövlətin yaradılması prosesi başlandı. [33]

Ulu öndərin əsasını qoyduğu azərbaycançılıq fəlsəfəsi milli dövlətçilik ideyamızın əsasını özündə cəmləmiş, bu sahədə qanunlar hazırlanmış, qanunvericilik gücləndirilmiş, dünya azərbaycanlılarının həmrəyliyinin əsasını qoyulmuş, hüquqi islahatlar həyata keçirilmişdir. Heydər Əliyevin bu sahədə gördüyü arasıkəsilməz işlərin nəticəsində dövlətimiz üçün çox uzun zamandır ciddi məsələ olaraq gündəmə gələn milli dövlətçilik problemi elmdən çıxaraq praktik olaraq həyata keçirilməyə başladı. Sözsüz ki, cəmiyyətin tələbatını ödəyən siyasi quruluşu, tam formalaşmış ictimai-siyasi institutları olan güclü dövlətdə vətəndaşların rifahının, hüquq və azadlıqlarının,əsasən, təmin olunması mümkündür. Bütün bunları gözü qarşısına alan Heydər Əliyev dövlət quruculuğunun özəyində duran ictimai-siyasi instituta böyük diqqət yetirirdi. Xüsusilə də 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının hamılıqla səs verərək qəbul edilməsinin ən mühüm xüsusiyyətlərindən biri də respublikamızda demokratik dövlət və vətəndaş cəmiyyəti formalaşdırılmasının prioritet olaraq vacib sahəyə çevrilməsidir.[34]

Ulu Öndərin demokratik dövlət formalaşdırılması prosesini qeyd edərkən, əlbəttə ki, respublikada mövcud siyasi sistemin təkmilləşməsi yolunda gördüyü işləri də ayrıca qeyd etmək lazımdır. Belə ki, ölkədə qurulan plüralizm məhz faydalı daxili siyasətin

---

[33] Bağırov, Ş.S., Vətəndaş cəmiyyəti: yaxında və uzaqda.Qloballaşma və Azərbaycan mədəniyyəti. – Bakı: "Araz". – 2004. – 440 s.

[34] Bələdiyyə bələdçisi. ABŞ-ın "Demokratiyanı himayə fondu" (NED).N.P.M. Bakı, 2000, s. 3.

gəldiyi nöqtə olmuşdur. Bu proses ölkə ərazisində istər fərqli siyasi institutların, istərsə də çoxlu sayda siyasi partiyaların fəaliyyət göstərməyi üçün yaradılmış siyasi sferada özünü biruzə verir. Şübhəsizdir ki, Azərbaycanda siyasi plüralizmin təmin olunmağa başladığı vaxt da elə həmin tarixə düşür. Əgər bir dövlətdə plüralizm və vətəndaş cəmiyyətindən danışırıqsa, mütləq ictimai-siyasi hərakatlar və siyasi partiyaların da demokratikləşmə yolundakı əsas rolunu qeyd etmək vacibdir. Azərbaycan cəmiyyətində vətəndaş cəmiyyətinin formalaşmasının ən əhəmiyyətli xüsusiyyətlərindən biri məhz yerli qeyri-hökumət təşkilatlarının yaradılmasından ibarət oldu. Ölkənin yenicə təşəkkül tapan üçüncü sektorunun hərtərəfli dəstəyə ehtiyacı duyulurdu. Bu dəstək yalnız beynəlxalq təşkilatlardan gələ bilərdi. Çünki QHT-lərin yeganə maliyyə mənbəyi beynəlxalq təşkilatlar idi.[35] Ümumilli Lider Heydər Əliyev tərəfindən atılan növbəti uğurlu addım 2000-ci ildə bu istiqamətdə əhəmiyyətli hadisə sayılan "Yerli QHT-lərin inkişaf proqramı" layihəsinin icrası oldu. BMT İnkişaf Proqramının QHT Resurs və Təlim Mərkəzi və Dünya Bankı bu layihənin həyata keçirilməsinə dəstək verdilər. Ayrı-ayrı sahələr üzrə mövcud olan problemlərin həllində QHT-lərin vahid mövqedən çıxış etməsinə bu tədbirlər mühüm əhəmiyyət daşıdı.[36]

**"Prezident İlham Əliyevin Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı strategiyası və onun reallaşması"** adlanan ikinci yarımfəsildə dövlət başçısı olaraq fəaliyyətə başladığı gündən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkədə bir sıra sosial-iqtisadi və siyasi dəyişikliklərə doğru ardıcıl siyasi fəaliyyət addımları geniş tədqiq edilmişdir. Azərbaycan Respublikasında ictimai və sosial həyatın demokratikləşməsinin başlıca vasitələrindən biri vətəndaş cəmiyyəti strukturlarının tərəqqi etdirilməsidir. Müasir Azərbaycanın müntəzəm olaraq artan sosial və iqtisadi inkişafı elə buna əsas yaradaraq vətəndaş cəmiyyəti institutlarına dəstək göstərilməsi üçün dövlət strukturlarının imkanını

---

[35] Bağırov, Ş.S., Vətəndaş cəmiyyəti quruculuğu: Yerli özünüidarəetmənin perspektiv istiqamətləri. Sosial-siyasi problemlər. IX buraxılış. – Bakı: ADPU mətbəəsi. – 2003. – 283 s.

[36] Dadaşova, E.X., Azərbaycan respublikasında vətəndaş cəmiyyətinin formalaşmasında demokratik prosesin rolu. – Bakı: Elm. – 2007. –188 s.

artırır, eyni zamanda, qeyri-hökumət təşkilatlarına kömək edilməsi üçün dövlət siyasətinin daha yaxşı təkmilləşməsi prosesini də sürətləndirir. Hazırda respublikamızda fəal vətəndaş cəmiyyətinin inkişafında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi xüsusi rol oynayır.

Bütövlükdə, respublikamızda ötən illərdə QHT-lər üçün hüquqi çərçivələr inkişaf etdirilmişdir.[37] Qeyd etmək vacibdir ki, Azərbaycanda bu sahədə dövlət siyasətinin əsas prinsiplərindən biri də cəmiyyətin inkişaf etdirilməsi məqsədi ilə ölkəmizdə mövcud olan qanunvericilik bazasını inkişaf etdirməkdir. [38]

QHT-lər ictimai həyatın bütün fərqli sferaları üzrə qəbul edilmiş dövlət proqramı və strategiyalarında başlıca tərəfdaş orqanlar kimi həm dövlətin, həm də cəmiyyətin qarşısında həll edilməsi zəruri hesab olunan milli, regional və məhəlli xarakterli ictimai vəzifələrin reallaşmasında fəal iştirakçıdır, həmçinin, çoxsaylı ictimai problemlərin həllinə öz töhfələrini verir.

Vətəndaş cəmiyyəti təsisatlarının başlıca istiqamətini formalaşdıran QHT-lərin yüksəlişi ilə əlaqəli qarşıya ciddi öhdəliklər qoyulur və bu yolda müntəzəm olaraq zəruri işlər görülür. Başlıca məqsəd ölkəmizdə QHT-lərin daha çox potensiala və davamlı prioritetlərə sahib olmasından, həm də dövlət və cəmiyyət sferasında fəal məqsədyönlü və səmərəli fəaliyyətini artırması üçün dəstəyin göstərilməsindən ibarətdir. Hal-hazırda mövcud olan və perspektivli dövlət siyasəti, bu siyasətin icra edilməsi də məhz bu əsas və hədəflərə istiqamətlənmişdir.

Azərbaycan hökuməti bu prosesdə tək deyil, beynəlxalq dəstəyə malikdir və təcrübə mübadiləsi üçün kifayət qədər tərəfdaşları var. Üçüncü fəslin üçüncü yarımfəsli **“Azərbaycan Respublikasında vətəndaş cəmiyyətinin inkişafında müasir mərhələnin xüsusiyyətləri”** adlanır. Bu yarımfəsildə ölkəmizdə vətəndaş cəmiyyəti quruculuğunun xüsusiyyətləri, meyilləri və perspektivi araşdırılmışdır. Azərbaycan

---

[37] Əliyev, İ.H. Nitqləri, çıxışları, bəyanatları, müsahibələri. Xarici siyasət fəaliyyətləri. -Bakı: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası, - 2017, 115 s.

[38] Мангейм Дж.Б., Пач П.К. Политология. Методы исследования: Пер. с англ. М., 1997, с.333.

cəmiyyətinin demokratikləşməsi, hüquqi dövlətin formalaşması və inkişafı vətəndaş cəmiyyəti quruculuğunu, müxtəlif sosial qrupları və təbəqələri təşkil edən vətəndaşların siyasi proseslərdə fəal iştirakını, onların tələbat və maraqlarının reallaşdırılmasını və həm də hakimiyyətin siyasi xəttinin həyata keçirilməsini təmin etməyə qadir olan ictimai-siyasi təşkilatların, müxtəlif assosiasiyaların təşəkkülünü zərurətə çevirir. Bu məsələ barədə dövlət başçısı İlham Əliyev demişdir: "Ciddi ictimai nəzarət olmadan, bizim nəzərdə tutduğumuz proqramların həyata keçirilməsi çətinliklərlə üzləşə bilər." Azərbaycan Respublikasında vətəndaş cəmiyyəti quruculuğunun başlıca istiqamətlərindən biri vətəndaş cəmiyyəti institutlarının inkişaf etdirilməsidir. Vətəndaş cəmiyyəti institutlarının aparıcı istiqamətini təşkil edən QHT-lərin inkişafı və onların vətəndaş cəmiyyəti quruculuğunda fəal iştirakı ilə bağlı qarşıya ciddi vəzifələr qoyulur və bu istiqamətdə davamlı işlər aparılır.

Azərbaycan dövləti ölkədə vətəndaş cəmiyyəti quruculuğuna, vətəndaş cəmiyyəti institutlarının inkişafı daim diqqətdə saxlanılır. Ölkəmizdə də cəmiyyətimizdə bu cür təşkilatların fəaliyyət mexanizmini tənzimləyən hüquqi baza mövcuddur.

Bununla yanaşı, dissertasiya işində İkinci Qarabağ müharibəsindəki qələbənin vətəndaş cəmiyyətinin inkişafı üçün geniş imkanlar yaratdığı qeyd edilmişdir. Bu uğurlu qələbədə dövlətin həm xalqla, həm vətəndaş cəmiyyəti təşkilatları ilə birgə fəaliyyəti araşdırılmış, eyni zamanda vətəndaş cəmiyyəti təsisatlarının, xüsusilə QHT-lərin bu böyük qələbənin gedişində birləşərək dövlətin yanında olduqları tədqiq edilmişdir. Məhz onların çoxşaxəli addımları sayəsində hərbidə davam edən uğurlar informasiya müharibəsində də özünü göstərdi. Dünya ictimaiyyətinə ən doğru məlumatların ötürülməsində, Ermənistanın törətdiyi müharibə cinayətləri faktlarının hamıya çatdırılmasında QHT-lər birgə bəyanatlar və hesabatlar təqdim edərək dəstək oldular. Bununla yanaşı, Qarabağ həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında geniş fəaliyyət göstərən Heydər Əliyev Fondu müharibədən sonra da bu istiqamətdə çox böyük işlər görməkdə davam edir. Eləcə də ölkəmizdə fəaliyyət göstərən siyasi partiyalar da dövlət başçısının qətiyyətli addımlarını birmənalı olaraq dəstəklədiklərini bildirdilər.

**Nəticədə** tədqiqata yekun vurulmuş, həmçinin problemin həlli ilə

bağlı fikirlər, nəzəri və praktiki xarakterli təklif və tövsiyələr irəli sürülmüşdür. Tədqiqatın əsas nəticəsi ondan ibarətdir ki, siyasi institutlar, o cümlədən dövlət və siyasi partiyalar vətəndaş cəmiyyətinin formalaşması və əhəmiyyətli rol oynayır, vətəndaş cəmiyyəti isə demokratik, hüquqi dövlətin mühüm tərəfi və zəruri sferası kimi çıxış edir. Bu reallıq Azərbaycan Respublikasının nümunəsində aydın şəkildə təzahür olunur. Azərbaycan Respublikasında əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş vətəndaş cəmiyyətinin formalaşması və inkişafı onun layiqli varisi Prezident İlham Əliyev tərəfindən zənginləşdirilərək, uğurla davam etdirilərək vətəndaş cəmiyyəti quruculuğu istiqamətində mühüm addımlar atılır.

**Dissertasiyanın əsas nəticələrini əks etdirən nəşr olunmuş elmi əsərlər:**


1. Vətəndaş cəmiyyəti ideyası: anlayışı və əsas mahiyyəti. //Bakı Dövlət Universiteti, Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal, №4, 2016
2. The role of democratisation principles in civil society formation//Bakı Dövlət Universiteti, İqtisadi və siyasi elmlər jurnalı. Elmi-analitik. Praktiki jurnalı, №3 (8),2017
3. Demokratiya və vətəndaş cəmiyyəti// Baku 2nd International conference of science. 1st of April, 2018 Baku.
4. Plüralizm demokratik cəmiyyətin göstəricisi kimi// Doktorantların və gənc tədqiqatçıların XXII Respublika elmi konfransının materialları. Azərbaycan Dövlət Pedaqoji Universiteti, II cild 22-23 noyabr 2018
5. Проблема взаимоотношений государства и гражданского общества в истории политической мысли// Politicus. Науковий журнал, №4,2018
6. Роль политических партий в формировании гражданского общества//Регионaльни студии. Науковий журнал, №14,2018
7. Azərbaycan cəmiyyətində hüquqi dövlət və vətəndaş cəmiyyətinin qarşılıqlı münasibətləri// Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Dövlət idarəçiliyi: Nəzəriyyə və təcrübə, №3 (67),2019

8. Azərbaycan Respublikasında Ombudsman institutu ilə qeyri-hökümət təşkilatlarının əməkdaşlığı// Geostrategiya. Aylıq ictimai-siyasi, elmi-populyar jurnal, №2 (50) mart-aprel,2019
9. Yerli özünüidarəetmə orqanları vətəndaş cəmiyyəti quruculuğunda əsas komponent kimi//Bakı Dövlət Universiteti, İqtisadi və siyasi elmlər jurnalı. Elmi-analitik. Praktiki jurnalı, №3 (8) sentyabr,2019
10. Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşmasında Heydər Əliyev siyasəti//Bakı Dövlət Universiteti, Ümumilli lider Heydər Əliyevin Azərbaycançılıq, dövlətçilik və diplomatik irsi, 7-8 may,2019
11. Основные тенденции формирования и функционирования неправительственных организаций в Азербайджане//East European science journal (Warsaw, Poland), 02 (54),2020
12. The legal state and its specific features//Интернаука. Сборнтк статей по материалам XXXIII международной научно-практической конференции. Общественные науки в современном мире: Политология, Социология, Философия, История, №4 (25),2020
13. International experience in the field of local self-government: realities and perspectives//European Science Review (Vienna, Austria), №1-2 January–February,2021
14. Dövlət idarəetməsində e-hökümət və e-demokratiya münasibətləri//The XXX International Scientific Symposium “Building cultural bridges to the future”, dedicated to the 30th anniversary of cooperation between the Republic of Azerbaijan and the Republic of Kazakhstan The 30th of September 2022 Astana/ Khazakstan
15. Electronic government: theoretical foundations and directions of an action// Political Science and Security Studies Journal **(**Przeworsk, Poland), Vol. 4 No. 2 (2023)

Dissertasiyanın müdafiəsi "29" fevral 2024-cü il tarixində saat 11:00 -da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdindəki FD 02.101 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, Lermontov küçəsi, 74

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq olar.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "27" yanvar 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 07.01.2024
Kağızın formatı: A5
Həcm: 38.601
Tiraj: 100